**İkinci Qarabağ müharibəsinin nəticələri və Dağlıq Qarabağ münaqişəsinin**

**sülh yolu nizamlanması prosesinə dair**

**Azərbaycan vətəndaş cəmiyyəti təmsilçiləri və siyasi fəallarının**

# BƏYANATI

**3 dekabr 2020-ci il** **Bakı şəhəri**

10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya dövlət və hökumət başçılarının imzaladığı bəyanat nəticəsində 44 gün davam edən İkinci Qarabağ müharibəsi başa çatıb və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yönündə yeni perspektivlər yaranıb.

Biz təəsüflə bildiririk ki, 1994-cü ildə başa çatan Birinci Qarabağ müharibəsi Azərbaycan Respublikası ərazisinin təxminən 15 faizinin işğalı, o zaman üçün 600 mindən artıq insanın öz doğma yurdlarından qovulması, habelə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin pozulması ilə nəticələndi. Ötən 27 il ərzində Birinci Qarabağ müharibəsi dövründə Birləşmiş Millətlər Təşkilatının Təhlkəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin (822, 853, 874, 884) icra olunmaması, digər beynəlxalq təşkilatların işğalın aradan qaldırılması barədə çağırışlarının nəzərə alınmaması, ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların işğalın aradan qaldırılması istiqamətində səmərəsizliyi və nəhayət son iki ildə Ermənistan hökumətinin danışıqlar prosesini pozan müxtəlif addımları yeni müharibənin başlamasına rəvac verdi.

Biz 44 gün davam edən müharibə nəticəsində hər iki tərəfdən minlərlə hərbi qulluqçunun və çox sayda mülki əhalinin, xüsusilə uşaqların həlak olmasından dərin üzüntümüzü ifadə edirik. Azərbaycan Respublikasının Gəncə, Bərdə, Tərtər kimi əhalinin sıx yaşadığı şəhərləri və digər mülki yaşayış məntəqələrinin hədəf seçilməsini şiddətlə qınayır, bu hücumların beynəlxalq hüquqi normalar əsasında qiymətləndirilməsini vacib sayırıq. Biz həmçinin hərbi əməliyyatlar zamanı Xankəndidə yaşayan erməni mülki əhalinin ziyan çəkməsindən eyni dərəcədə dərin üzüntümüzü ifadə edirik.

Biz ümid edirik ki, 44-günlük hərbi əməliyyatlar dönəmində əsirlərə qarşı pis rəftar hallarına müharibənin acı reallığı kimi haqq qazandırılmayacaq, bununla bağlı sosial şəbəkələrdə yayılan görüntülərə səlahiyyətli qurumlar beynəlxalq humanitar hüququn pozulması kimi yanaşaraq, obyektiv qaydada araşdıracaq, cavabdeh şəxslərin əməllərinə hüquqa müvafiq qiymət veriləcək.

Biz Azərbaycan Hərbi Prokurorluğunun həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər edilməsi, habelə əsir götürülmüş erməni hərbçiləri ilə qeyri-insani rəftarı əks etdirən videogörüntülərlə bağlı cinayət işi başlamasını təqdir edir, hüquqi normalar və

insani dəyərlər baxımından bunu vacib hesab edirik. Eyni zamanda Ermənistan Respublikasının eyni hallar üzrə həqiqi araşdırma aparmasının beynəlxalq ictimaiyyət tərəfindən tələb edilməsini vacib sayırıq.

Biz həmçinin, müharibənin başa çatmasını təqdir edir, 10 noyabrda imzalanmış üçtərəfli bəyanatı 30 illik münaqişənin sülh yolu ilə nizamlanması yönündə yeni imkan sayır, habelə bu sənəddə aydınlaşdırılmayan məsələlərlə bağlı aşağıdakı narahatlığımızı ifadə edirik:

### 1) Dağlıq Qarabağın Azərbaycan nəzarətinə keçməmiş hissəsi ilə bağlı vəziyyət

Azərbaycan ordusu 27 sentyabr tarixindən keçirdiyi əks-hücum əməliyyatları zamanı başda Şuşa şəhəri olmaqla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisinin bir hissəsini Azərbaycanın nəzarətinə qaytarmağa müvəffəq olub. Ancaq bu bəyanat keçmiş DQMV-nin bütün ərazisinin Ağdam, Kəlbəcər və Laçın rayonları kimi Azərbaycanın nəzarətinə keçməsini təmin etmir. Azərbaycanın beynəlxalq tanınmış və suveren ərazisinin tərkib hissəsi olan keçmiş DQMV-nin sözügedən əraziləri hələ də Azərbaycan nəzarətindən kənarda qalır. Bu ərazilərin Azərbaycanın nəzarətinə keçməsi yönündə bundan sonra nəzərdə tutulan planlar barədə cəmiyyətin narahatlığına hələ də aydınlıq gətirilməyib. Bu narahatlığı aradan qaldırmaq üçün Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının ictimaiyyəti ətraflı şəkildə məlumatlandırmasını vacib hesab edirik.

Eyni zamanda sözügedən bəyanat keçmiş DQMV ərazisinin Rusiya sülhməramlıları yerləşən hissəsində yerli erməni hərbi birləşmələrini tərkisilah edilməsi və yerli erməni əhalisinin silahsızlaşdırılması məsələsinə aydınlıq gətirmir. Bu məsələyə aydınlıq gətirilməsi gələcəkdə birgə sülh şəraitində yaşayışın pozulmaz şəkildə təşkili üçün xüsusi əhəmiyyət daşıyır.

### 2) Rusiya sülhməramlı kontingentinin mandatı

10 noyabr bəyanatında adı çəkilən Rusiya sülhməramlı kontingentinin mandatı ilə bağlı məsələlər hələ də açıq qalır. Xüsusilə Rusiya sülhməramlı kontingentinin bölgədəki missiyasının dəqiq müəyyənləşdirilməsi, o cümlədən missiyanın davamlılığını labüd edən və ya etməyən şərtlərin açıqlanmaması cəmiyyətdə ciddi narahatlıqlar doğurur.

Bununla yanaşı Rusiya sülhməramlı kontingentin BMT-nin Davranış qaydalarında nəzərdə tutulan prinsiplərə uyğun mövcudluğu üçün ev sahibi ölkə - Azərbaycan Respublikasının Konstitusiyası və digər normativ hüquqi aktlarının tələblərinə uyğun statusu, ölkə ərazisində mövcudluğu üçün razılıq prosedurunun daxili qanunvericiliyin tələblərinə uyğun olub-olmaması, fəaliyyəti dönəmində müxtəlif növ hüquq pozmalarına mütanasib cavabdehliyi aydın deyil. Bu baxımdan Azərbaycan və Rusiya dövlətləri arasında Dağlıq Qarabağda sülhməramlı kontingentin missiyası, mandatı və səlahiyyətlərini müəyyən edən sazişin imzalanmasını, xüsusən də mülki idarəçiliklə bağlı məsələlərə aydınlıq gətirilməsini və Azərbaycan ictimaiyyətinin bu barədə ətraflı məlumatlandırılmasını zəruri sayırıq.

Qeyd edək ki, Rusiyanın regiondakı rolunun tarixini nəzərə alaraq, sülhməramlı kontingentin tərkibinin yalnız Rusiya hərbi qulluqçularından təşkil edilməməsi, digər Minsk Qrupuna üzv ölkələrin hərbi qulluqçularının da cəlb edilməsi və belə bir sülhməramlı missiyanın beynəlxalq hüquqi sənədlərlə dəstəklənməsi ilə bağlı cəmiyyətdə gözləntilər mövcuddur. Bu gözləntilərin qarşılanması üçün hökumətin fəaliyyəti barədə ictimaiyyətin məlumatlandırılması mühüm əhəmiyyət daşıyır.

### 3) Qarabağ ərazisində tranzit yollarından birgə istifadə

10 noyabr bəyanatında açıq qalan məsələlərdən biri də Rusiya sülhməramlı kontigentinin yerləşdiyi ərazidə hər iki etnik qrupdan olan əhalinin tranzit yollarından birgə istifadə imkanlarının təşkilidir.

Məsələn, məsafəcə çox yaxın olan tarixi Ağdam-Şuşa avtomobil yolu Xankəndi yaxınlığından keçdiyi üçün gələcəkdə istifadəyə verilməsi məsələsi açıq qalıb. Eyni şəkildə Kəlbəcərə getmək üçün Ağdərə rayonu ərazisindən keçən magistral yoldan istifadənin mümkünlüyü və təhlükəsizliyi sual doğurur. Hazırda qeyri-müəyyən olan məsələrdən biri də Qubadlı-Laçın-Şuşa yolundan Azərbaycan vətəndaşlarının istifadəsi və bu zaman təhlükəsizliyin təminatı məsələləridir.

Biz həmçinin Qarabağda yeni alternativ yolların çəkilməsinin müvəqqəti olduğunu başa düşməklə yanaşı ən qısa zamanda digər mövcud tarixi yolların bərpasını gələcəkdə xalqların inteqrasiyasına xidmət etməsi üçün vacib hesab edirik.

### 4) Erməni və azərbaycanlı köçkünlərin qayıtması və təhlükəsizliyi ilə bağlı məsələ

Bəyanatda məcburi köçkünlər və qaçqınların Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıtması qeyd olunsa da, bu kateqoriyaya daxil olan şəxslərin yerləşməsi ilə bağlı məsələ açıq qalır. Xüsusən də hazırda Rusiya sülhməramlılarının yerləşdiyi Ağdərə, Xankəndi, Xocalı və Xocavənd rayonlarına azərbaycanlı məcburi köçkünlərin qayıtdıqdan sonra təhlükəsizliyi, həmçinin onların yaşayışı ilə bağlı məsələlər (dil, təhsil, ictimai xidmətlərdən istifadə və.s) ilə bağlı nəzərdə tutulan mexanizmlərin hökumət tərəfindən açıqlanmasını zəruri hesab edirik.

### 5) Atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin mandatı

Sənəddə açıq qalan digər məsələ atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin mandatı ilə bağlı ətraflı məlumatın olmamasıdır. Hazırda Rusiya və Türkiyə hərbçilərinin birgə təmsilçiliyi ilə bu mərkəzin təsis olunacağı bildirilsə də, hələlik bu mərkəzin nəzarətinə aid olacaq məsələlər, onun hüquqi statusu və dislokasiyası ilə bağlı razılaşmalar ictimaiyyətə bəlli deyil.

Bununla bərabər biz Rusiya sülhməramlı kontingentinin fəaliyyətinin ən azı 5 il göstərildiyi halda atəşkəsə nəzarət mərkəzinin fəaliyyətinin cəmi bir il müəyyən edilməsinə dair əlavə izahata ehtiyac hiss edirik.

### 6) Laçın dəhlizinin statusu və həmin ərazidə azərbaycanlı əhalinin yerləşməsi

Bəyanatda Ermənistan sərhəddindən Xankəndinədək olan 60 km məsafədə Rusiya sülhməramlılarının 5 km enliyində zolaqda yerləşməsi qeyd edilib. Bununla da təxminən 300 kv km ərazidə azərbaycanlı yaşayış məntqələrinə əhalinin yerləşməsi və mülki həyatının tənzimlənməsi məsələsi narahatlıq doğurur. Hazırda aydın olmayan digər məsələ Laçın dəhlizinin statusu, xüsusən də Ermənistanla sərhəddə Azərbaycan sərhəd qoşunları təmsilçilərinin nəzarəti və dəhlizdən gələcək istifadə qaydalarıdır. Eyni şəkildə bu dəhlizin statusuna uyğun olaraq Mehridən keçməklə Naxçıvana gediş-gəlişi nəzərdə tutan yolun statusu və ondan istifadə qaydalarının aydınlaşdırılmasına ehtiyac var.

***Yaranmış yeni siyasi vəziyyətdə bütün tərəflərin, o cümlədən hökumətlər və ictimai-siyasi qüvvələrin məsuliyyətli və hesabatlı davranmasını zəruri sayaraq, aşağıdakı istiqamətlərdə təşəbbüslərin başlamasını vacib sayırıq:***

1) Müharibə cinayətləri ilə bağlı qarşılıqlı iddiaların hər iki ölkənin milli qanunvericliyi və tərəf olduqları beynəlxalq hüquqi sənədlərin çərçivəsində şəffaf qaydada araşdırılması;

2) Bütün münaqişə müddətində və ikinci Qarabağ müharibəsi zamanı mülki obyektlər, tarixi-mədəni abidələr, təbii qoruqlar və meşə təsərüfatına dəymiş ziyanın qarşılıqlı şəkildə müəyyən edilməsi ilə bağlı beynəxalq ekspertlərdən ibarət birgə qiymətləndirmə komissiyasının yaradılması;

3) İşğaldan azad olunmuş yerlərin minalardan təmizlənməsi ilə bağlı yerli imkanların dəstəklənməsi üçün minaların təmizlənməsi üzrə ixtisaslaşmış beynəlxalq humanitar qurumların ölkəyə dəvət edilməsi;

4) İğaldan azad olunmuş yerlərin, o cümlədən azərbaycanlı və erməni əhalinin yaşadığı ərazilərin infrastrukturunun yenidən qurulması və yerli icma quruculuğunun dəstəklənməsi üçün beynəlxalq inkişaf təşkilatlarının, habelə yerli vətəndaş cəmiyyətinin fəaliyyətinə mövcud olan maneələrin aradan qaldırılması və bu sahədə hüquqi tənzimləmənin asanlaşdırılması, o cümlədən ATƏT-in Bakıda ölkə nümayəndəliyinin bərpa olunması;

5) Müharibə iştirakçıları, cəbhəboyu yerləşən yaşayış məntqələrinin sakinləri, əsir və girovlar, o cümlədən şəhid ailələrinin reabilitasiyası ilə bağlı müvafiq dövlət proqramının hazırlanması və qəbulu;

6) Müharibə iştirakçıları və şəhid ailələrinin sosial müdafiəsinin artırılması, habelə müharibə nəticəsində fiziki və ya psixoloji sağlamlığı zərər görmüş və uzunmüddətli və ya mütəmadi tibbi müayinə və müalicəyə ehtiyacı olan müharibə veteranlarının sağlamlığının bərpası və möhkəmləndirilməsinin maliyyə xərclərinin Azərbaycan Respublikası dövlət büdcəsindən qarşılanması məqsədilə yeni normativ hüquqi aktların qəbulu;

7) Qarabağın azərbaycanlı və erməni əhalisinin münaqişədən öncəki bütün yaşayış yerlərində geri qayıtması ilə bağlı BMT-nin müvafiq mexanizmləri üzrə re-inteqrasiya planının hazırlanması və bu prosesdə işğal müddətində Qarabağa kənardan köçürülmüş əhalinin hüquqi statusunun (qeyri-qanuni miqrant, məcburi köçkün və ya qaçqın) müəyyənləşdirilməsi;

8) İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma və re-inteqrasiya üzrə dövlət komitəsinin yaradılması və işğaldan azad edilmiş bölgələrdə filiallarının yaradılması;

9) Beynəlxalq qurumlara yenidənqurma və reinteqrasiya prosesində birgə əməkdaşlıq üçün dəvət müraciəti;

İmzalayanlar:

1) Anar Məmmədli
2) Araz Əliyev
3) Bəşir Süleymanlı
4) Elman Fəttah
5) Murad Nəsibov
6) Rəsul Cəfərov
7) Rəbiyyə Məmmədova
8) Əbülfəz Qurbanlı
9) Xədicə İsmayıl
10) Ülvi Həsənli
11) Seymur Həzi
12) Toğrul İsmayılov
13) Ziya Quliyev
14) Zaur Əkbər